№ 166 (4466) 16 oktyabr 2020-ci il

# Vətən sevgisindən yaranan qəhrəmanlıq

Səfərəli Məmmədovun adı Masallı rayonunda kiçikdən böyüyə kimi hamı üçün Vətən qədər əziz və müqəddəsdir. Hər dəfə bu ad ehtiramla çəkiləndə ürəklər qürurdan dağa dönür. Bu ilahi sevgini Səfəralıya qazandıran Qarabağımızın azadlığı uğrunda şirin canını vətənə qurman etməklə bağlıdır. 29 yaşında şəhidlik zirvəsinə ucalan Masallının igid oğlu Səfərəli əbədi olaraq könüllərə köçübdür.

S. Məmmədov 16 0ktyabr 1963-cü ildə Masallı rayonunun Sərçuvar kəndində anadan olmuşdur. Özünü dərk edən gündən həyatının mənasını vətənə, xalqa təmənnasız xidmətdə görür. 1981-ci ildə hərbi xidmətə yola düşəndə artıq el-obada xeyirxahlığı, nəcibliyi çoxlara nümunə idi. Səfərali ordu sıralarında da millətinə başucalığı gətirir. Ordudan tərxis olunan kimi Rusiyanın Krasnodar şəhərində milis sistemində fəaliyyətə başlayır və çox keçmir xüsusi bacarığı onu tanıtdırır, vicdanlı, nümunəvi xidmətinə görə mükafata layiq görülür.

1990-cı ildə Səfərəli Bakı Xüsusi Orta Milis Məktəbinə göndərilir. Buranı müvəffəqiyyətlə bitirib leytenant rütbəsi alır. Ona Bakı Hava limanında iş təklif olunur. Amma o, Azərbaycanımızın dar günündə cəbhədə düşmənlə döyüşməyi üstün tütür. Ağdama gedir, burada polis komandiri kimi ağır döyüşlərə atılır. Fərruxda, Ağbulaqda, Qara-kənd kəndində bir-birinin ardınca düşmənə sarsıdıcı zərbələr vurur. Nəticədə vətən oğlunun cəsurluğu, igidliyi, öz doğma torpağına bağlılığı sözün əsl mənasında erməni dığalarını lərzəyə salır. Dəstəsi ilə atıldığı bütün müharibə meydanlarda istəyi yalnız Qarabağın müqəddəs torpaqlarını tezliklə mənfur düşmən



tapdağından azad edilməsi olur.

Erməni faşistləri Xocavənd rayonunun Qaradağlı kəndinə hücum edib dinc insanları qətlə yetirir, meyidləri silos quyularına atırdılar. Bu erməni vandalizmin qarşısını almaq məqsədilə 1992-ci il 16 fevralda Səfəralının başçılıq etdiyi dəstə dığalara qarşı ölüm-dirim savaşına başlayır, düşmən xeyli sayda itki verir. Döyüşün qızğın yerində Səfəralının idarə etdiyi maşını qumbaraatanla vururlar. Qəlpələrdən bir neçəsi kəmərindəki əl qumbarasına dəyir. İgidliyi bütün döyüş yoldaşlarına nümunə olan Səfərəli vətən yolunda şəhidlik zirvəsinə yüksəlir.

S. Məmmədovun qəhrəmanlığı qədir bilən xalqımız tərəfindən unudulmur. Şərəfli ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Masallının ən yaraşıqlı küçələrdən bir onun adını daşıyır. Oxuduğu məktəbə indi onun adınadır . Bütün bunlarla bərabər , Səfəralının şücaətindən danışan " Qəhrəman polis" adına sənədli film çəkilibdir.

Səfərəli qısa bir ömür yaşadı. Qaldı ki, keçdiyi həyat yolu vətəninə, böyük bir millətə şərəf, şan gətirdi. 57 yaşının qeyd olunduğu bu günlərdə qalxdığı şəhidlik zirvəsindən daha məğrur, qürurlu görünür. Axı Şanlı Ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında onun arzusunu layiqincə yerinə yetirir. Erməni dığaların murdar ayaqları Qarabağdan təmizlənir.

**Zəfər ORUCOĞLU**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**